# Avropa ali təhsil məkanında
# keyfiyyət təminatı üzrə
# standartlar və təlimatlar (ESG)

Ali Təhsildə Keyfiyyətə Təminat üzrə Avropa Assosiasiyası (ENQA)

Avropa Tələbələr Birliyi (ATB)

Avropa Universitetlər Assosiasiyası (EUA)

Ali Təhsil Müəssisələrinin Avropa Assosiasiyası (EURASHE)

Müəllim Həmkarlar İttifaqları Federasiyası (Eİ)

Avropa Biznes Təşkilatı (BusinessEurope )

Ali Təhsildə Keyfiyyət Təminatı üzrə Avropa Reyestri Təşkilatı (EQAR)

May 2015

# Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar (ESG)

## 14-15 May 2015-ci ildə Yerevanda keçirilmiş Nazirlər Konfransında təsdiqlənib.

Mündəricat


Giriş sözü ........................................................3

I. Kontekst, əhatə dairəsi, məqsəd və prinsipləri ........................................................4

Kontekstin müəyyənləşdirilməsi ........................................................4

Əhatə dairəsi və Konsepsiya ........................................................4

ESG: məqsəd və prinsiplər ........................................................5

II. Ali təhsil sahəsində keyfiyyət təminatı üzrə Avropa standartları və təlimatlar ........................7

1-ci hissə: Daxili keyfiyyət təminatı üzrə standartlar və təlimatlar........................................8

2-ci hissə: Xarici keyfiyyət təminatı üzrə standartlar və təlimatlar........................................ 14

3-cü hissə : Keyfiyyət təminatı agentlikləri üçün standartlar və təlimatlar............................ 17

Əlavə III. Standartların ümumi siyahısı ........................................................ 20

**Giriş sözü**

Avropa ali təhsil məkanında daxili keyfiyyət təminatı üzrə standartlar və təlimatlar (ESG) Avropa Tələbələr Birliyi (ATB)[1], Ali Təhsil Müəssisələrinin Avropa Assosiasiyası (EURASHE), Avropa Universitetlər Assosiasiyası (EUA) ilə birlikdə Ali Təhsildə Keyfiyyətə Təminat üzrə Avropa Assosiasiyası (ENQA) tərəfindən hazırlanmış təklif əsasında ali təhsil məsələlərinə cavabdeh olan nazirliklər tərəfindən 2005-ci ildə qəbul olunmuşdur.

2005-ci ildən etibarən keyfiyyət təminatında, eləcə də kvalifikasiya çərçivəsi, təlim nəticələrinin istifadəsinin tanınması və təşviqi kimi həyata keçirilən digər Boloniya tədbirlərində əhəmiyyətli irəliləyişlər baş vermişdir. Bütün bunlar tələbələrə əsaslanan tədris və təhsil istiqamətində köklü fikir dəyişikliyinə gətirib çıxarmışdır.

Dəyişən konteksti nəzərə alaraq, Nazirlərin 2012-ci ildə birgə qəbul etdikləri rəsmi qərara (kommunike) əsasən, E4 Qrupuna Müəllim Həmkarlar İttifaqları Federasiyası (Eİ), Avropa Biznes Təşkilatı (BusinessEurope) və Ali Təhsildə Keyfiyyət Təminatı üzrə Avropa Reyestri Təşkilatı (EQAR) ilə əməkdaşlıq şəraitində "şəffaflığını, tətbiqini, faydalılığını, eləcə də əhatə dairəsinin" təkmilləşdirilməsi məqsədilə ESG-nin yenidən nəzərdən keçirilməsi məqsədilə ilkin təklifi hazırlamaq həvalə olundu.

Görüşlər zamanı maraqlı tərəflərin və nazirliklərin nümayəndələrinin iştirakı ilə müzakirələr aparılmışdır. Həmin müzakirələr zamanı edilmiş bir sıra qeydlər, təkliflər, şərhlər və tövsiyələr Rəhbər Komitə tərəfindən diqqətlə təhlil edilmiş və nəzərə alınmış və ESG-nin son nəşrində öz əksini tapmışdır. Bütün qeyd olunanlarla yanaşı, nəşrdə bütün maraqlı tərəflərin Avropa ali təhsil məkanında keyfiyyət təminatının təkmilləşdirilməsi üzrə həmrəy olmasının əks etdirilməsi bu məsələnin gələcəkdə uğurlu icrasına möhkəm əsas yaradır.

Ali Təhsildə Keyfiyyətə Təminat üzrə Avropa Assosiasiyası (ENQA)
Avropa Tələbələr Birliyi (ATB)
Avropa Universitetləri Assosiasiyası (EUA)
Ali təhsil müəssisələrinin Avropa Assosiasiyası (EURASHE)
tərəfdaşlar:
Müəllim Həmkarlar İttifaqları Federasiyası (Eİ)
Avropa Biznes Təşkilatı (BusinessEurope )
Ali Təhsildə Keyfiyyət Təminatı üzrə Avropa Reyestri Təşkilatı (EQAR)

ATB daha əvvələr "ESİB" – Avropada Tələbələrin Milli Birliyi adı ilə fəaliyyət göstərmişdir.

## I. Kontekst, əhatə dairəsi, məqsəd və prinsiplər

***Kontekstin müəyyənləşdirilməsi***

Ali təhsil, tədqiqatlar və innovasiyalar sosial həmrəyliyin, iqtisadi yüksəlişin və beynəlxalq rəqabətədavamlılığın artırılmasında əhəmiyyətli rol oynayır. Avropa cəmiyyətlərinin daima inkişafda olan və biliklərə əsaslanan cəmiyyət qurmaq istəyini nəzərə aldıqda ali təhsilin sosial-iqtisadi və mədəni inkişafın əhəmiyyətli bir komponenti olduğu qənaətinə gəlmək olar. Eyni zamanda, bacarıq və qabiliyyətlərə dair tələblər artdığı üçün ali təhsil həmin tələblərə yalnız innovativ metodlardan istifadə etməklə cavab verə bilər.

Ali təhsilin əlçatarlılığının artması ali təhsil müəssisələrinə daha çox müxtəlif fərdi təcrübələrdən yararlanmaq imkanı yaradır. Ali təhsilin müxtəlifliyə və dəyişən gözləntilərə cavab verə bilməsi üçün ali təhsil müəssisələrinin fəaliyyətində əsaslı dəyişikliklər tələb olunur. Bu dəyişikliklərə təlim və tədris prosesində tələbəyə fərdi yanaşmanın artırılması, yeni şəraitə çevik uyğunlaşa bilən tədris metodlarından istifadə və rəsmi tədris planlarından kənarda əldə edilmiş qabiliyyətlərin tanınması aiddir. Ali təhsil müəssisələri həyata keçirdikləri missiyalara, tədris və əməkdaşlıq imkanlarına, o cümlədən beynəlmiləlləşmənin inkişafına, onların malik olduqları rəqəmsal tədris vasitələrinə və tətbiq etdikləri tədris formalarına görə fərqlənir.[2] Ali təhsil sistemlərinin və ali təhsil müəssisələrinin bu dəyişikliklərə cavab verməsində, eləcə də tələbələrin əldə etdiyi kvalifikasiyaların təmin edilməsində keyfiyyət təminatının rolu olduqca əhəmiyyətlidir və onların ali təhsil təcrübəsi müəssisənin əsas missiyalarındandır.

Ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatların əsas məqsədi fərqli regionlarda və bütün maraqlı tərəflər arasında təhsil və tədris prosesində keyfiyyət təminatına dair ortaq anlayışın yaradılmasına töhfə verməkdir. Həmin standartlar və təlimatlar Avropa ali təhsil məkanında milli və institusional keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsində və regional əməkdaşlıq məsələsində vacib rol oynayır və rol oynamaqda davam edəcəkdir. Keyfiyyət təminatı prosesləri, xüsusi ilə xarici keyfiyyət təminatı prosesləri Avropa ali təhsil müəssisələrinin keyfiyyətini nümayiş etdirməyə və şəffaflığı artırmağa imkan verir, beləliklə, qarşılıqlı etimad yaratmağa, ali təhsil müəssisələrinin kvalifikasiyalarının, proqramlarının və xidmətlərinin daha yaxşı tanınmasına yardım edir.

Müəssisələr və keyfiyyət təminatı agentlikləri ESG-dən ali təhsildə daxili və xarici keyfiyyət təminatı sistemləri üçün istinad sənəd kimi istifadə edir. Bundan əlavə, ESG tələblərinə cavab verən keyfiyyət təminatı agentliklərin reyestrinin aparılması üzrə məsul təşkilat olan Ali Təhsildə Keyfiyyət Təminatı üzrə Avropa Reyestri fəaliyyətində ESG-yə əsaslanır.

***Əhatə dairəsi və konsepsiyası***

ESG ali təhsildə daxili və xarici keyfiyyət təminatı üzrə standartlar toplusudur. ESG keyfiyyət standartlarını və keyfiyyət təminatı prosesinin həyata keçirilməsi proseslərini müəyyən etmir, lakin ali təhsildə tədris mühiti və keyfiyyətin uğurlu şəkildə təmin olunmasında vacib olan sahələr üzrə istiqamət göstərir. ESG Avropa ali təhsil məkanının ali təhsilində qarşılıqlı etimad və şəffaflığın təşviqinə töhfəsini verən kvalifikasiya çərçivəsi, ECTS (Avropa Kredit Köçürməsi Sistemi) və diploma əlavənin də daxil olduğu daha geniş kontekstdə nəzərdən keçirilməlidir.

---

[2] Avropa Komissiyasından məlumat: təhsilə başlama: yeni texnologiyalardan və Açıq Təhsil resurslarından istifadə edilməklə hamı üçün innovativ tədris və təhsil imkanlarının yaradılması, COM (2013) 654 yekun,

http://ec.europa.eu/education/news/doc/openingcom_en.pdf

ESG əsas diqqət ali təhsil müəssisələrində təlim və tədris prosesinə, o cümlədən təlim mühiti və bununla əlaqədar aparılan tədqiqat və innovasiya işlərində keyfiyyət təminatına yetirilir. Əlavə olaraq, ali təhsil müəssisələri tədqiqat və idarəetmə kimi digər fəaliyyət sahələrində də keyfiyyət təminatını və artırılmasının təmin edən müvafiq siyasət və prosedurala malikdir.

ESG yerləşdiyi məkandan və formasından asılı olmayaraq Avropa ali təhsil məkanına daxil olan bütün ali təhsil müəssisələrinə, o cümlədən transmilli və transsərhəd təhsil xidmətləri göstərən bütün ali məktəblərə aid edilir. Bu sənəddə "proqram" termini ali təhsil sahəsində formal dərəcə alınmasını nəzərdə tutmayan proqramlar da daxil olmaqla ən geniş mənada istifadə edilir.

Ali təhsil bir neçə vəzifənin həyata keçirilməsini qarşısına məqsəd qoymuşdur. Həmin məqsədlərə tələbələri cəmiyyətdə fəal vətəndaş olmağa və gələcəkdə karyera qurmağa (məşğulluq imkanlarına tövhə verməklə) hazırlanması, şəxsiyyət kimi inkişaf etmələrinə töhfə verilməsi, müasir və geniş biliklər bazasının yaradılması, tədqiqat və innovasiyaların stimullaşdırılması da daxildir.[3] Ali təhsildə fərqli məsələləri prioritet hesab edən müxtəlif maraqlı tərəflər keyfiyyət məsələsinə də müxtəlif aspektlərdən yanaşa bilərlər. Bu səbəbdən də, ali təhsildə keyfiyyət amili müxtəlif cür qiymətləndirə bilər və keyfiyyət təminatı prosesində bütün bu məsələlər nəzərə alınmalıdır. Keyfiyyətin tərifi mürəkkəbdir və əsasən müəllim, tələbə və institusional (akademik) tədris mühiti arasında qarşılıqlı əlaqələrin nəticəsidir. Keyfiyyət təminatı sistemi elə bir tədris mühiti təmin etməlidir ki, proqramların məzmunu, biliklərin əldə edilməsi imkanları və resurslar nəzərdə tutulmuş məqsədlərə uyğun olsun.

Keyfiyyət təminatı fəaliyyətlərinin əsasında iki oxşar məqsəd dayanır: hesabatlılıq və keyfiyyətin artırılması. Bu iki prinsip birlikdə ali təhsil müəssisələrinin fəaliyyətinə etimad yaradır. Keyfiyyət təminatı prosesi uğurlu şəkildə həyata keçirildiyi təqdirdə ali təhsil müəssisəsi və ictimaiyyət ali təhsil müəssisəsinin fəaliyyətinin keyfiyyəti haqqında müvafiq məlumatla təmin olunur və görülən işlərin keyfiyyətinin necə yüksəldilməsinə dair məsləhət və tövsiyələr verilir. Keyfiyyət təminatı və artırılması bir biri ilə bağlı məsələlərdir. Tələbələr, müəllim-professor heyəti, ali məktəblərin rəhbərliyi və idarə heyəti öz peşəkar fəaliyyət sahəsi üzrə keyfiyyət mədəniyyətinin təkmilləşdirilməsinə yardım edə bilərlər.

**Bu sənəddə göstərilmiş "Keyfiyyət təminatı" termini davamlı təkmilləşdirmə dövrəsi çərçivəsində həyata keçirilən bütün fəaliyyətləri təsvir etmək üçün istifadə olunur (başqa sözlə, keyfiyyət təminatı və artırılması fəaliyyəti).**

Bu sənəddə başqa bir məsələ nəzərdə tutulmadıqda, maraqlı tərəflər dedikdə ali təhsil müəssisinin fəaliyyətinə cəlb olunmuş bütün şəxslər - tələbələr və işçi heyəti də daxil olmaqla, kənar maraqlı tərəflər olan işəgötürənlər və ali məktəblərlə əməkdaşlıq edən üçüncü şəxslər nəzərdə tutulur.

Bu Standart və təlimatlarda istifadə olunan "müəssisə" sözü ali təhsil müəssisəsi deməkdir. Ali təhsil müəssisənin keyfiyyət təminatı məsələsinə yanaşmasından asılı olaraq bu yanaşma bütövlükdə müəssisəyə və ya müəssisədə fəaliyyət göstərən istənilən şəxsə aid edilə bilər.

***ESG: məqsəd və prinsiplər***

ESG-nin aşağıdakı məqsədləri vardır:

- Avropa, milli və istitusional səviyyədə təlim və tədris üzrə keyfiyyət təminatı sistemlərinin ümumi çərçivəni müəyyənləşdirmək;
- Avropa ali təhsil məkanında ali təhsilin keyfiyyət təminatına və yaxşılaşdırılmasına imkan yaratmaq;

---

3 Avropa Şurasının Nazirlər Komitəsinin ali təhsil və tədqiqat üzrə ictimai məsuliyyətə dair Tövsiyələri Rec(2007)6, http://www.coe.int/t/dg4/highereducation/News/pub_res_EN.pdf

- Qarşılıqlı etimadı təmin etməklə milli sərhədlər daxilində və xaricində tanınma və mobillik məsələlərinə yardım göstərilməsi;
- Avropa ali təhsil məkanında keyfiyyət təminatı üçün zəruri olan məlumatın təmin olunması.

Bu məqsədlər müxtəlif institutlar, agentliklər və ölkələrdə ESG-dən müxtəlif cür istifadə edilə bilməsi üçün əsas yaradır. Avropa ali təhsil məkanı müxtəlif siyasi sistemlərin, fərqli ali təhsil sistemlərinin, çeşidli sosial mədəni və təhsil ənənələrinin, ayrı-ayrı dillərin, tam fərqli meyllərin və gözlənilən nəticələrin mövcudluğu ilə səciyyələnir. Bütün bu sadalananlar ali təhsildə keyfiyyət və keyfiyyət təminatı məsələlərində birtərəfli yanaşmanı uyğunsuz edir. Bütün bu standartların geniş şəkildə qəbul olunması Avropada keyfiyyət təminatının ortaq anlayışının yaradılması üçün ilkin şərtdir. Məhz bu səbəbdən, bütün təhsil formalarına tətbiq edilə bilinməsi üçün ESG mümkün qədər ümumiləşdirilmiş olmalıdır.

ESG keyfiyyət təminatı üzrə agentliklərin və onların fəaliyyətlərinin qiymətləndirilməsi üçün Avropada mövcud olan keyfiyyət səviyyəsinə uyğun olan meyarlar təklif edir.[4] Bütün bunlar Avropa ali təhsil məkanında fəaliyyət göstərən keyfiyyət təminatı agentliklərinin eyni prinsiplərə riayət etmələrini təmin edir və proses və prosedurlar onların məqsəd və fəaliyyət göstərdikləri kontekstə uyğun hazırlanıb.

ESG Avropa ali təhsil məkanında keyfiyyət təminatında aşağıdakı dörd prinsipə əsaslanır:

- Ali təhsil müəssisələri göstərdikləri təhsil xidmətlərinin keyfiyyət təminatına birbaşa cavabdehlik daşıyır;
- Keyfiyyət təminatı müxtəlif ali təhsil sistemləri, müəssisələr, proqramlar və tələbələrlə əlaqədar müxtəlif məsələlərlə məşğul olur;
- Keyfiyyət təminatı sistemi keyfiyyət mədəniyyətinin inkişaf etdirilməsini dəstəkləyir;
- Keyfiyyət təminatı tələbələrin, digər maraqlı tərəflərin və cəmiyyətin ehtiyaclarını və təhsildən gözləntilərini nəzərə alır.

[4] Ali Təhsildə Keyfiyyət Təminatı üzrə Avropa Reyestri Təşkilatının siyahısına daxil olmaq üçün müraciət edən agentliklərdə ESG-nin müəyyən etdiyi meyarlara uyğun olaraq xarici yoxlamalar keçirilir. Ali Təhsildə Keyfiyyətin Təminatı üzrə Avropa Assosiasiyası, öz növbəsində, keyfiyyətin təminatı üzrə agentliklərə tam hüquqlu üzvlük statusunun verilməsi zamanı ESG-yə uyğunluğu əsas götürür.

## II. Ali təhsil sahəsində keyfiyyət təminatı üzrə Avropa standartları və təlimatları

Keyfiyyət təminatı üzrə standartlar üç hissəyə bölünür:

1) Daxili keyfiyyət təminatı;
2) Xarici keyfiyyət təminatı;
3) Keyfiyyət təminatı agentlikləri.

Qeyd olunmalıdır ki, yuxarıda qeyd olunan üç standart bir-biri ilə bağlıdır və birlikdə Avropa keyfiyyət təminatı çərçivəsinin əsasını təşkil edir. Xarici keyfiyyət təminatı standartlarının (2-ci hissə) daxili keyfiyyət təminatı standartlarını tanıması (1-ci hissə) ali təhsil müəssisələrinin daxili keyfiyyət təminatı sahəsində apardığı işlərin xarici keyfiyyət təminatı standartlarına uyğun olmasını nümayiş etdirir. 3-cü bəndə əks olunmuş standartlar 2-ci bəndə əks olunmuş standartlarla eyni qaydada əlaqələnir. Beləliklə, yuxarıda qeyd olunan üç komponent (hissə) ali təhsil müəssisələrində və agentliklərdə bir birini tamamlayır və digər maraqlı tərəflər də bu işə öz töhfəsini verir. Bir sözlə, üç hissə bir tam kimi qəbul olunmalıdır.

*Standartlar* Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə razılaşdırmış və qəbul edilmiş praktikanı müəyyən edir. Bu səbəbdən, ali təhsil müəssisələri tərəfindən göstərilən təhsil xidmətləri həmin standartlara uyğun olmalıdır. Keyfiyyət təminatı üzrə standartların ümumiləşdirilmiş siyahısı üçün Əlavəyə bax.

*Təlimatlar* standartların nə üçün vacib olmasını izah etməklə onların necə həyata keçirilməli olduğunu təsvir edir. Həmin standartlar keyfiyyət təminatı ilə məşğul olan şəxslərin müvafiq sahədə keyfiyyət təminatı məsələsini nəzərdən keçirməsi üçün yaxşı bir imkan yaradır. Təlimatların həyata keçirilməsi kontekstdən asılı olaraq fərqli ola bilər.

*1-ci hissə: Daxili keyfiyyət təminatı üzrə standartlar və təlimatlar*

## 1.1.Keyfiyyət təminatı siyasəti

**Standart :**
**Ali təhsil müəssisələri ictimaiyyət üçün açıq olan və onların starteji idarəetməsinin bir hissəsini təşkil edən keyfiyyət təminatı siyasətinə malik olmalıdırlar. Təşkilatın daxilində olan maraqlı tərəflər bu siyasəti müvafiq struktur və proseslər vasitəsi ilə və eyni zamanda təşkilatdan kənarda olan maraqlı tərəfləri də bu prosesə cəlb etməklə həmin siyasəti inkişaf etdirməli və həyata keçirməlidirlər.**

**Təlimatlar**:
Siyasətlər və proseslər ali təhsil müəssisəsinin davamlı inkişafını təmin edən və onun hesabatlılıq sisteminə töhfəsini verən institusional keyfiyyət təminatı sisteminin əsas dayağıdır. Bu, bütün daxili maraqlı tərəflərin keyfiyyətə dair üzərinə məsuliyyət götürməsini və müəssisənin bütün səviyyələrində keyfiyyət təminatında iştirakını təşviq edən keyfiyyət mədəniyyətinin yaradılmasını dəstəkləyir. Bunu asanlaşdırmaq məqsədilə siyasət rəsmi statusa malikdir və ictimaiyyətə açıqdır.

Keyfiyyət təminatı siyasətləri tədqiqat, təlim və tədris arasında əlaqəni əks etdirdikdə və ali məktəblərin fəaliyyət göstərdikləri milli konteksti, institusional konteksti və strateji yanaşmanı nəzərə aldıqda daha səmərəli olur. Bu siyasət aşağıdakı məsələlərə yardım edir:

- Keyfiyyət təminatı sisteminin təşkili;
- departament, şöbə və digər təşkilatı vahidlər, habelə ali təhsil müəssisələrinin rəhbərliyi, sıravi əməkdaşlarının keyfiyyət təminatı ilə bağlı məsuliyyət daşıması;
- Akademik dürüstlük və azadlıqlar, akademik saxtakarlığa qarşı mübarizə;
- Ali məktəbin tələbə və işçilərinə qarşı ayrıseçkiliyin və dözümsüzlüyün olmaması;
- Keyfiyyət təminatı prosesinə xarici maraqlı tərəflərin cəlb olunması.

Bu siyasət bütün müəssisənin iştirakına imkan verən müxtəlif daxili keyfiyyət təminatı prosesləri vasitəsilə tətbiq edilir. Siyasətin həyata keçirilməsi, nəzarət edilməsi və yoxlanılması üsul və vasitələrini ali təhsil müəssisələri müəyyən edir.

Keyfiyyət təminatı siyasəti ali təhsil müəssisələrinin üçüncü tərəfə həvalə etdiyi funksiyalarına da aid edilir.

## 1.2.Proqramların tərtib və təsdiq olunması

**Standart :**
**Ali təhsil müəssisələri proqramlarının tərtib və təsdiq olunmasını nəzərdə tutan proseslərə malik olmalıdır. Proqramlar tərtib olunarkən onların qarşısında qoyulan tapşırıqlar, o cümlədən gözlənilən təlim nəticələri nəzərə alınmalıdır. Proqramda nəzərdə tutulan kvalifikasiya aydın şəkildə müəyyən edilməli və əlaqələndirilməli, ali təhsil üzrə milli kvalifikasiya çərçivəsinə, Avropa ali təhsil məkanının kvalifikasiya çərçivəsinə uyğun olmalıdır.**

**Təlimatlar**:

Təhsil proqramları ali təhsil müəssisələrinin tədris missiyasının əsasında dayanır. Təhsil proqramları tələbələrin fərdi inkişafına təsir edəcək, onların gələcək karyeralarında tətbiq oluna biləcək və üçüncü tərəflərə ötürülə biləcək akademik bilik və bacarıqlar aşılayır.

Proqramlar :

- Institusional strategiyaya cavab verən və açıq şəkildə nəzərdə tutulmuş təlim nəticələri olan ümumi proqrama uyğun tərtib edilir;
- Tələbələrin və digər maraqlı tərəflərin iştirakı ilə hazırlanır;
- Xarici təcrübədən və məlumat resurslarından istifadə olunmaqla hazırlanır;
- Avropa Şurasının ali təhsilə dair dörd məqsədini əks etdirir (əhatə dairəsi və konsepsiyalar);
- Tələbələrin təhsildə rahat şəkildə irəliləməsini təmin edir;
- Tələbələrin iş yükünü müəyyənləşdirir ( məsələn ECTS) ;
- müvafiq hallarda tələbələrin ali təhsil müəssisəndən kənarda olan təcrübə fəaliyyətini əhatə etməlidir [6];
- Institusional qaydada formal olaraq təsdiq olunmalıdırlar;

### 1.3. Tələbələrə yönəldilmiş təhsil, tədris və qiymətləndirmə

| **Standart :**<br>**Müəssisələr proqramların tələbələrin tədris prosesinin yaradılmasında fəal iştirakını təşviq edəcək və tələbələrin qiymətləndirilməsinin bu yanaşmanı əks etdirəcək tərzdə icrasını təmin etməlidirlər.** |
|---|

**Təlimatlar**:

Tələbələrə yönəldilmiş təhsil və tədris tələbələrin motivasiyanın artırılması, özünü təhlil etməsi və təhsil prosesinə cəlb olunmasında vacib rol oynayır. Bu səbəbdən, təhsil proqramlarının tərtibi və tədrisi, eləcə də nəticələrin qiymətləndirilməsi diqqətlə nəzərdən keçirilməlidir.

Tələbələrə yönəldilmiş təhsil və tədrisin həyata keçirilməsi aşağıdakıları nəzərdə tutur:

- təhsildə yeni/dəyişən təhsil üsullarının istifadəsinə imkan yaratmaqla tələbələrin müxtəlifliyinə hörmətlə yanaşmaq və onların ehtiyaclarına xidmət etmək;
- müvafiq hallarda tədrisin müxtəlif yollarla həyata keçirilməsini nəzərdən keçirmək və tətbiq etmək;
- müxtəlif pedaqoji metodlardan məharətlə istifadə etmək;
- tədris formalarını və pedaqoji metodları daim qiymətləndirmək və uyğunlaşdırmaq;
- müəllimdən müvafiq təlimat və yardım almaq şərti ilə təhsil alan şəxslərdə müstəqillik hissini stimullaşdırılmaq;
- tələbə və müəllim arasında münasibətlərinin qarşılıqlı hörmət əsasında qurulmasını təşviq etmək;
- tələbələrin şikayətlərinə baxılması üçün müvafiq prosedurаları yaratmaq.

Tələbələrin irəliləyişi və gələcək karyeraları üçün qiymətləndirmə önəmli olduğundan, qiymətləndirmə üzrə keyfiyyət təminatı prosesləri aşağıdakıları nəzərə almalıdır:

[6] tələbələrin təhsil aldıqları müddətdə onların təhsil aldıqları sahədə təcrübələrinin artırılması məqsədi ilə ali təhsil müəssisəsindən kənarda həyata keçirilən təcrübə, internatura və sair oxşar fəaliyyətlər.

- bilikləri qiymətləndirən şəxslər mövcud imtahan və yoxlamaların aparılması metodları ilə tanış olmalıdırlar və bu sahədə bilik və bacarıqlarının təkmilləşdirilməsində onlara yardım göstərilməlidir;
- qiymətləndirmə meyarları və metodları, habelə qiymət verilməsi meyarları qabaqcadan nəşr olunur;
- qiymətləndirmə prosesi tələbələrdən gözlənilən təlim nəticələrini nümayiş etdirməyə imkan verir. Ehtiyac olduqda, tələbələrə təhsil prosesi üzrə tövsiyələrlə əlaqədar rəy verilir;
- mümkün olan hallarda qiymətləndirmə bir neçə şəxs tərəfindən aparılır;
- qiymətləndirmə qaydalarında yüngülləşdirici hallar nəzərdə tutulur;
- qiymətləndirmə davamlı və obyektiv olmalı, ayrıseçkiliyə yol verilməməli və qabaqcadan elan olunmuş prosedurlara uyğun həyata keçirilməlidir;
- qiymətləndirmə ilə bağlı tələbələrin şikayət etməsi üçün formal prosedurlar mövcud olmalıdır.

### 1.4. Tələbələrin ali məktəbə qəbulu, təhsil alması, tanınması və attestasiyası

**Standart :**
**Ali təhsil müəssisələri tələbələrin ali məktəbə qəbulu, təhsil alması, tanınması və attestasiya qaydalarını qabaqcadan müəyyən və bəyan etməlidirlər.**

**Təlimatlar**:

Elmi kareyaralarında uğur əldə etmək üçün tələbələrə şəraitin yaradılması və bu sahədə onlara yardım göstərilməsi tələbələrin, ali məktəblərin və ümumilikdə təhsil sisteminin marağındadır. Nəzərdə tutulmuş məqsədlərin tələblərinə cavab verən qəbul, tanınma və buraxılış prosedurlarının olması olduqca vacibdir. Tələbələrin ali təhsil müəssisələrinin daxilində və kənarda mobilliyi baxımından bu məsələlərin vacibliyi xüsusi ilə aktualdır.

Ali təhsil müəssisələrinə qəbul proseslərinin və meyarlarının bir qaydada və şəffaf formada həyata keçirilməsi çox əhəmiyyətlidir.

Ali təhsil müəssisələri tələbələrin irəliləyişi haqqında məlumatların toplanılması, yoxlanılması və işlənilməsi üzrə alət və proseslər tətbiq etməlidir.

Ali təhsil kvalifikasiyalarının, təhsil dövrünün və əvvəlki təhsilin tanınması, o cümlədən qeyri-formal və informal təhsilin tanınması təhsil prosesi baxımından, xüsusi ilə mobillik məsələləri baxımından böyük əhəmiyyət kəsb edir. Tanınma prosedurları aşağıdakı şərtlərə əsaslanır:

- tanınma üzrə institusional praktikanın Tanınma üzrə Lissabon Konvensiyasının prinsiplərinə uyğun olması;
- bütün ölkə üzrə tanınmanın təmin edilməsi məqsədilə digər ali təhsil müəssisələri, keyfiyyət təminatı agentlikləri və milli ENİC/NARİC* mərkəzi ilə əməkdaşlıq.

Tələbənin ali təhsil müəssisini bitirməsi ali təhsil prosesinin kulminasiyası hesab olunur. Təhsil müəssisəsini bitirdikdə tələbələrə verilmiş kvalifikasiyanı, o cümlədən təlim nəticələrini, elmi səviyyəni və statusu əks etdirən sənəd verilməlidir.

* ENİC/NARİC – Avropa Məlumat Mərkəzləri Şəbəkəsi /Milli Akademik tanınma üzrə məlumat mərkəzi

### 1.5. Müəllim heyəti

**Standart :**
**Ali təhsil müəssisələrində çalışan müəllimlərin səriştələri həmin ali təhsil müəssisələri tərəfindən müəyyən olunur. Müəllim heyətinin işə qəbulunda və digər kadr məsələlərində şəffaf və ədalətli qaydalar tətbiq edilməlidir.**

**Təlimatlar**:
Tələbələrin yaxşı təcrübə, bilik, bacarıq və vərdişlərə yiyələnməsində müəllimlərin böyük rolu var. Tələbə heyətinin diversifikasiyası və təlim nəticələrinin önə çəkilməsi tələbəyə yönəldilmiş təhsil və tədrisin olmasını tələb edir. Bu səbəbdən tədris prosesində müəllimin rolu dəyişir (baxın: standart 1.3).

Ali təhsil müəssisələrində çalışan əməkdaşların peşəkarlığına və onların vəzifələrini səmərəli şəkildə yerinə yetirməsini mümkün edən müvafiq mühitin yaradılmasına görə ali təhsil müəssisələri birbaşa məsuliyyət daşıyır. Müvafiq mühitin yaradılması aşağıdakı məsələlərə töhfə verir:

- əməkdaşların işə qəbulu və tədrisin əhəmiyyətini vurğulayan iş şəraiti yaratmaq məqsədilə aydın, şəffaf və ədalətli proseslərin tətbiqi və riayət edilməsi;
- müəllim heyətinin peşəkar inkişafını təmin edən münbit şəraitin yaradılması və inkişaf etdirilməsi;
- təhsil və tədqiqat işləri arasında əlaqənin gücləndirilməsinə yönəlmiş elmi fəaliyyətin həvəsləndirilməsi;
- tədrisdə innovasiyaların tətbiqi və yeni texnologiyalardan istifadənin həvəsləndirilməsi.

### 1.6. Təhsil resursları və tələbələrə dəstək

**Standart :**
**Təhsil və tədris proseslərinin həyata keçirilməsi üçün ali təhsil müəssisələri müvafiq maliyyə imkanlarına malik olmalıdır. Tələbələrin tədris resurslarına çıxışı təmin olunmalıdır və onlara bu sahədə dəstək verilməlidir.**

**Təlimatlar:**
Tələbələrin ali təhsil müddətində yüksək təcrübəyə yiyələnmələrinin təmin edilməsi məqsədi ilə ali təhsil müəssisələri tələbələrin istifadəsi üçün bir sıra tədris resursları təqdim edir. Tədris resurslarına kitabxana, tədris vasitələri və İT infrastrukturu, habelə tyutor, konsultant və digər məsləhətçilər tərəfindən verilən məsləhət və tövsiyələr daxildir. Tələbələrin mobilliyinin artırılmasında yardımçı xidmətlərin rolu xüsusi ilə əhəmiyyətlidir.

Tədris resursları ayrılarkən, hazırlanarkən və tələbələrin ixtiyarına verilərkən, eləcə də tələbələrə dəstək göstərilərkən, müxtəlif qrup və kateqoriyadan olan tələbələrin (yaşlı tələbələr, qiyabi bölmədə təhsil alan, işləyən və xarici tələbələr, habelə fiziki qüsurlu tələbələr) ehtiyacları, tələbəyə yönəldilmiş təhsil formasına keçid məsələsi, habelə təhsil və tədrisin şəraitdən asılı olaraq tez uyğunlaşan formaları nəzərə alınmalıdır.

Institusional kontekstdən asılı olaraq yardımçı fəaliyyət və yardımçı vasitələr müxtəlif yollarla təşkil oluna bilər. Buna baxmayaraq, daxili keyfiyyət təminatı sistemi bütün resursların məqsədəuyğun və əlçatan olmasını təmin etməli və tələbələrin istifadəsi üçün təqdim edilən xidmətlər barədə onları məlumatlandırmalıdır.

Yardımçı xidmətlərin göstərilməsində köməkçi və inzibati heyətin rolu olduqca əhəmiyyətlidir. Bu səbəbdən də həmin əməkdaşlar peşəkar olmalı və biliklərini artırmaq imkanına malik olmalıdırlar.

### 1.7. Məlumatın idarə olunması

| **Standart :**<br>**Ali təhsil müəssisələri onlara məxsus proqramların və digər fəaliyyətlərin səmərəli şəkildə həyata keçirilməsini təmin etmək üçün ehtiyac duyulan məlumatları əldə etməli, təhlil etməli və istifadə etməlidirlər.** |
|---|

**Təlimatlar**:
Əsaslandırılmış qərarların qəbul edilməsi, müsbət və mənfi cəhətlərin müəyyən edilməsində dürüst məlumatlara malik olmaq olduqca əhəmiyyətlidir. Təhsil proqramları və digər fəaliyyətlər barədə məlumatların toplanması və təhlili ilə bağlı aparılan işlər daxili keyfiyyət təminatı sisteminə aiddir.

Ali təhsil müəssisəsinin formasından və yerinə yetirdiyi vəzifədən asılı olaraq əldə edilməsi tələb olunan məlumatların xarakteri də fərqlənə bilər. Məlumatlar aşağıdakı məsələləri əhatə etməlidir:

- əsas qiymətləndirilmə göstəriciləri;
- tələbə heyəti haqqında qısa məlumat;
- təhsil alan tələbələrin, ali təhsil müəssisəsini uğurla başa vuran və xaric olan tələbələrin sayı;
- tələbələrin təhsil proqramlarından məmnunluğu;
- tədris resursları və tələblərə yardım edilməsi;
- məzunların peşəkar fəaliyyətlərində əldə etdikləri nailiyyətlər.

Məlumatların toplanması müxtəlif yollarla həyata keçirilə bilər. Tələbələrin və işçi heyətin məlumatların toplanması və növbəti addımların planlaşdırılması fəaliyyətinə cəlb olunması olduqca əhəmiyyətlidir.

### 1.8. İctimaiyyət üçün məlumat

| **Standart :**<br>**Ali təhsil müəssisələri fəaliyyətləri, o cümlədən proqramları barədə aydın, dəqiq, obyektiv və son məlumatları nəşr etməlidir. Məlumatlar əlçatarlı olmalıdır.** |
|---|

**Təlimatlar**:
Ali təhsil müəssisəsi haqqında məlumatlar gələcək və cari tələbələr, məzunlar, digər maraqlı tərəflər və ictimaiyyət üçün faydalıdır.

Bu səbəbdən, ali təhsil müəssisələri fəaliyyətləri, təklif etdikləri proqramlar, seçim meyarları, proqramlardan gözlənilən təlim nəticələri, proqramların verdikləri kvalifikasiyalar, təhsil, tədris və qiymətləndirmədə istifadə edilən proseduralar, keçid balları, tələbələr üçün yaradılmış tədris imkanları, işlə təmin olunmuş məzunların sayı ilə bağlı məlumatı ictimaiyyətə təqdim etməlidirlər.

### 1.9. Proqramların daimi monitorinqinin aparılması və vaxtaşırı yoxlanılması

| **Standart :**<br>**Ali təhsil müəssisələri tədris proqramlarında nəzərdə tutulmuş məqsədlərə nail olmaq, habelə tələbələrin və cəmiyyətin ehtiyaclarını təmin etmək məqsədi ilə proqramların daimi monitorinqi aparılmalı və vaxtaşırı yoxlanılmalıdır. Proqramların yoxlanılmasının nəticəsi kimi həmin proqramlar təkmilləşməlidir. Planlaşdırılan və ya həyata keçirilən hər hansı bir fəaliyyət barədə bütün aidiyyəti tərəflərə məlumat verilməlidir.** |
|---|

**Təlimatlar**:
Tədris proqramlarının müntəzəm olaraq monitorinqinin aparılması, nəzərdən keçirilməsi və düzəlişlərin edilməsində məqsəd tədris prosesinin lazımi qaydada icrasının təmin edilməsi və tələbələr üçün əlverişli tədris mühitinin yaradılmasıdır.

Buraya aşağıdakı məsələlərin qiymətləndirilməsi daxil edilir:

- tədris edilən proqramın həmin sahə üzrə aparılan son tədqiqatların nəticələrini əks etdirməsi və bu fənn üzrə mövcud olan ən son proqramlara uyğun olmasının təmin edilməsi;
- cəmiyyətin dəyişən ehtiyaclarının müəyyən edilməsi;
- tələbələrin iş yükü, təhsil alması və təhsilini tamamlaması;
- tələbələrin qiymətləndirilməsi üçün istifadə edilən prosedurların səmərəliliyi;
- tələbələrin proqramdan gözlədikləri nəticələr, onların ehtiyacları və proqramdan məmnunluqları;
- tədris mühiti, yardımçı xidmətlər və qeyd olunanların proqramın məqsədlərinə uyğun olması.

Tələbələrin və digər maraqlı tərəflərin iştirakı ilə proqramlar daima nəzərdən keçirilərək onlara düzəlişlər edilir. Toplanmış məlumatların təhlili aparılır və proqramın müasirliyinin təmin edilməsi üçün müvafiq düzəlişlər edilir. Düzəliş edilmiş proqram ictimaiyyətə təqdim edilir.

### 1.10. Dövri olaraq xarici keyfiyyət təminatı

**Standart :**
**Dövri olaraq ali təhsil müəssisələri ESG-yə uyğun olaraq xarici keyfiyyət təminatı vasitəsi ilə yoxlamadan keçməlidir.**

**Təlimatlar**:
Ali təhsil müəssisələrdə daxili keyfiyyət təminatının səmərəliliyi xarici keyfiyyət təminatı zamanı müxtəlif yollarla yoxlanıla bilər və təkmilləşdirmə üçün katalizator rolunu oynaya və müəssisə üçün yeni imkanlar aça bilər. Proses eləcə də ali təhsil müəssisinin fəaliyyətinin keyfiyyəti haqqında ali məktəb və ictimaiyyətə məlumat təqdim edəcək.
Xarici keyfiyyət təminatı məqsədi ilə keçirilən yoxlamalar zamanı ali təhsil müəssisələrinin fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının tələbləri nəzərə alınmalıdır.
Bu səbəbdən, qanunvericilik aktlarının tələbindən asılı olaraq xarici keyfiyyət təminatı sistemi müxtəlif formalarda həyata keçirilə və müxtəlif təşkilati səviyyələrdə (proqram, fakültə və ya institut) aparıla bilər.

Keyfiyyət təminatı davamlı proses olmaqla hər hansı bir rəyin verilməsi, hesabatın tərtib edilməsi və ya ali təhsil müəssisəsinin daxilində növbəti prosedurانın həyata keçirilməsi ilə yekunlaşmır. Bu səbəbdən, ali təhsil müəssisələri növbəti xarici keyfiyyət təminatı prosesinə hazırlaşarkən keçirilmiş son prosesinin nəticələrini nəzərə almalıdırlar.

*2-ci hissə: xarici keyfiyyət təminatı*

**2.1. Daxili keyfiyyət təminatı prosesinin nəzərdən keçirilməsi**

**Standart :**
**Xarici keyfiyyət təminatı ESG –nin 1-ci hissəsində təsvir edilmiş daxili keyfiyyət təminatının səmərəliliyini qiymətləndirməlidir.**

**Təlimatlar**:
Ali təhsil müəssisələrində keyfiyyət təminatı sistemi ali təhsil müəssisələrinin proqramlarının və göstərdiyi digər xidmətlərin keyfiyyətinə görə məsuliyyət daşıyır. Bu səbəbdən də xarici keyfiyyət təminatı sisteminin ali təhsil müəssisələrinin keyfiyyət təminatına dair öhdəliklərini tanıması və dəstəkləməsi əhəmiyyət daşıyır. Daxili və xarici keyfiyyət təminatı sistemləri arasında əlaqənin təmin olunması məqsədi ilə xarici keyfiyyət təminatı sistemi 1-ci hissədə qeyd olunmuş standartları nəzərə almalıdır.

**2.2. Nəzərdə tutulmuş məqsədlərə uyğun olan metodologiyanın hazırlanması**

**Standart :**
**Xarici keyfiyyət təminatı sistemi müvafiq qanunvericilik aktlarının tələbləri nəzərə alınmaqla həmin sistem qarşısına qoyulan məqsədlərə cavab verməsi şərti ilə hazırlanmalıdır.**

**Təlimatlar**:
Səmərəlilik və obyektivliyin təmin edilməsi məqsədilə xarici keyfiyyət təminatının aydın hədəflərə malik olması olduqca önəmlidir. Hədəflər maraqlı tərəflər arasında razılaşdırılmalıdır.

Prosesin hədəf və məqsədləri, habelə yerinə yetirilməsi aşağıdakıları əhatə etməlidir:

- ali məktəblərin üzərinə qoyulan iş yükünün səviyyəsi və xərclərin nəzərə alınması;
- keyfiyyətin yaxşılaşdırılması məqsədi ilə ali təhsil müəssisələrinin dəstəyə olan ehtiyacının nəzərə alınması;
- ali təhsil müəssisələrinə keyfiyyətin yaxşılaşdırılması sahəsində əldə etdikləri nailiyyətləri nümayiş etdirmək üçün imkanların yaradılması;
- nəticələr və sonrakı tədbirlər barədə aydın məlumatın əldə edilməsi.

Ali təhsil müəssisələri daxili keyfiyyət təminatı sistemlərinin səmərililiyini nümayiş etdirə bilsə, xarici keyfiyyət təminatı sistemi daha çevik formada işləyə bilər.

**2.3. Prosesin həyata keçirilməsi**

**Standart :**
**Xarici keyfiyyət təminatı prosesləri etibarlı və faydalı olmalı, əvvəlcədən müəyyən edilib razılaşdırılmalı və ictimaiyyətə bəyan olunmalıdır. Xarici keyfiyyət təminatı prosesləri zamanı aşağıdakı şərtlərə əməl olunmalıdır:**

- **özünüqiymətləndirmə və ya buna oxşar proseslər həyata keçirilməli;**
- **xarici qiymətləndirilmə zamanı qiymətləndirilmə aparılan yerə səfər edilməli;**
- **kənar qiymətləndirilmənin aparılması nəticəsində hesabat tərtib olunmalı;**
- **bu sahədə işlərin davam etdirilməsi.**

**Təlimatlar**:

Xarici keyfiyyət təminatı prosesi peşəkar, davamlı və şəffaf formada aparıldıqda hamı tərəfindən qəbul ediləcəkdir və müsbət təsiri olacaqdır.

Xarici keyfiyyət təminatı sisteminin məqsədindən asılı olaraq ali təhsil müəssisələri xarici keyfiyyət təminatı prosesinin həyata keçirilməsi üçün özünüqiymətləndirmə və ya yardımçı sübutlar daxil olmaqla digər materialları əsas kimi təqdim etməlidir. Maraqlı tərəflər müəssisəyə səfərlər təşkil etdikdə onlarla aparılmış müsahibələrin yazılı protokolları tərtib olunmalı və sənədlərə əlavə olunmalıdır. Qiymətləndirmə prosesini əks etdirən nəticələr kənar ekspertlər (bax standart 2.5) tərəfindən tərtib edilmiş hesabatda (bax standart 2.4) öz əksini tapmalıdır.

**2.4. Müstəqil ekspertlər**

| |
|---|
| **Standart :**<br>**Xarici keyfiyyət təminatı üzrə müstəqil ekspert qrupunda tələbələr də təmsil olunmalıdır.** |

**Təlimatlar**:
Xarici keyfiyyət təminatı prosesinin əsasında müstəqil ekspertlər tərəfindən hazırlanmış və bir çox məsələləri əhatə edən ekspert rəyi dayanır. Həmin rəyin hazırlanmasında agentliyin fəaliyyətinə cəlb olunmuş ali təhsil müəssisəsinin əməkdaşları, müəllim-professor heyəti, tələbələr və işə götürənlər / peşəkar mütəxəssislər - ekspertlər iştirak edir.

Ekspertlərin fəaliyyətinin səmərəli və ahəngdar şəkildə təşkil edilməsi üçün aşağıdakı şərtlər təmin olunmalıdır :

- ekspertlər düzgün seçilməlidir;
- öz vəzifələrin yerinə yetirə bilmələri üçün ekspertlər müvafiq bacarıq və səriştəyə malik olmalıdırlar;
- ekspertlərə müvafiq təlimlər keçirilməli və/və ya onlar təlimatlandırılmalıdır.

Ekspertlərin müstəqilliyinin təmin edilməsi məqsədi ilə agentlik “maraqların toqquşmaması” prinsipini rəhbər tutmalıdır.

Keyfiyyət təminatı üzrə ekspert qrupuna beynəlxalq ekspertlərin daxil edilməsi daha məqsədəuyğundur. Belə ki, beynəlxalq ekspertlərin ekspert qrupuna daxil edilməsi keyfiyyətin artırılması prosesinin təkmilləşdirilməsi ilə nəticələnəcəkdir.

**2.5. Nəticələrə dair meyarlar**

| |
|---|
| **Standart :**<br>**Xarici keyfiyyət təminatını nəticəsində əldə edilən istənilən nəticə və ya mühakimələr prosesin rəsmi qərarla nəticələnib-nəticələnməməyindən asılı olmayaraq daim tətbiq edilən açıq və nəşr edilmiş meyarlara əsaslanmalıdır.** |

**Təlimatlar**:

Xarici keyfiyyət təminatı prosesi, xüsusi ilə də bu prosesin nəticəsi qiymətləndirilən ali təhsil müəssisələrinə və onların proqramlarına əhəmiyyətli təsir göstərəcəkdir.

Qərəzsizliyin, obyektivliyin və etibarlılığın təmin olunması məqsədi ilə aparılmış xarici keyfiyyət təminatı prosesinin nəticələri qabaqcadan müəyyən edilmiş və elan olunmuş meyarlara əsaslanmalıdır. Həmin meyarlar ardıcıl qaydada şərh olunmalı və dəlillərlə əsaslanmalıdır. Xarici keyfiyyət təminatı sistemindən asılı olaraq, nəticələr müxtəlif formalarda, misal üçün, tövsiyələr, mülahizələr və ya formal qərarlar şəklində verilə bilər.

**2.6. Hesabat**

**Standart :**
**Ekspertlərin hesabatları tam dərc edilməli və elmi dairələr, xarici tərəfdaşlar və digər maraqlı fərdlər üçün aydın və əlçatarlı olmalıdır. Agentlik hesabata əsaslanaraq rəsmi qərar qəbul edərsə, həmin qərar hesabatla birlikdə dərc olunmalıdır.**

**Təlimatlar**:
Ekspertlər tərəfindən hazırlanmış hesabat ali təhsil müəssisəsinin xarici keyfiyyət təminatı sahəsində həyata keçiriləcəyi növbəti addımlar üçün əsas olacaqdır və həmin ali təhsil müəssisəsinin fəaliyyəti haqqında ictimaiyyəti məlumatlandıracaqdır. Xarici keyfiyyət təminatı ilə bağlı növbəti addımların atılmasında hesabatın əsas sənəd olması üçün həmin hesabatın strukturu və yazılma dili aydın və yığcam olmalı, habelə aşağıdakı məsələləri əhatə etməlidir :

- mövcud vəziyyətin təsviri (ali təhsil müəssisəsini fəaliyyət göstərdiyi kontekstin təsviri);
- proseduralara cəlb olunmuş ekspertlər daxil olmaqla proseduranın təfərrüatlı təsviri;
- dəlillər, təhlil və əldə olunmuş məlumatlar;
- mülahizələr;
- ali təhsil müəssisəsi tərəfindən nümayiş edilmiş mütərəqqi təcrübənin xüsusiyyətləri;
- həyata keçiriləcək növbəti addımlara dair tövsiyələr.

Yekun hesabatın hazırlanması məqsədəuyğundur.
Hesabat yekunlaşdırılmamışdan öncə müəssisəyə hesabatda faktlarla bağlı yanlışlıqların müəyyən edilməsi imkanı verilərsə, hesabat təkmilləşdirilə bilər.

**2.7. Şikayət və müraciətlər**

**Standart :**
**Şikayət və müraciətlərin edilməsi prosesi xarici keyfiyyət təminatı prosesinin bir hissəsi olmalı, aydın şəkildə müəyyən edilməli və ali təhsil müəssisələrinə bu barədə məlumat verilməlidir.**

**Təlimatlar**:
Ali təhsil müəssisələrinin maraqlarının müdafiəsi və xarici keyfiyyət təminatı üzrə agentlik tərəfindən verilmiş qərarların obyektivliyinin təmin edilməsi məqsədi ilə agentliyin bu sahədə gördüyü iş açıq olmalı və bu barədə cəmiyyətə hesabat verməlidir. Bununla belə, həyata keçirilmiş proseslər və ya hazırlanmış yekun sənədlə bağlı hər hansı bir anlaşılmazlıq və ya narazılığın olması istisna olunmur.

Ali təhsil müəssisələrinə agentliyin fəaliyyəti ilə bağlı şikayət, etiraz və narazılıqlarını bildirmələri üçün şərait yaradılmalıdır. Bu kimi müraciətlərin edilə bilməsi üçün agentliklər aydın və anlaşılan qaydalar tətbiq etməlidir.

Şikayətlərin verilməsi proseduru ali təhsil müəssisələrinə qiymətləndirmə prosesinin aparılması və ya bu prosesi aparan tərəflərlə bağlı etirazlarını bildirmək imkanı verir.

Müraciət prosedurunda müəssisə rəsmi proses nəticələrini şübhə altına alır. Bunun üçün müəssisə nəticənin möhkəm dəlilə əsaslanmadığını, meyarların düzgün tətbiq edilmədiyini və ya proseslərin davamlı olaraq icra edilmədiyini nümayiş etdirməlidir.

## *3-cü hissə : keyfiyyət təminatı agentlikləri üzrə standartlar və təlimatlar*

### 3.1. Keyfiyyət təminatı üzrə həyata keçirilən fəaliyyətlər, siyasət və proseslər

**Standart :**
**ESG-nin 2-ci hissəsində əksini tapmış təlimatlara uyğun olaraq agentliklər müntəzəm sürətdə xarici keyfiyyət təminatı üzrə tədbirlər həyata keçirməlidir. Agentliklərin açıq-aydın və dəqiq müəyyən edilmiş məqsədləri və hədəfləri olmalıdır. Bu hədəf və məqsədlər təşkilatın bəyan edilmiş missiyasının bir hissəsini təşkil etməlidir. Bu qaydalar agentliyin gündəlik fəaliyyətində öz əksini tapmalıdır. Agentliklərin idarə olunmasında və fəaliyyətində maraqlı tərəflərin iştirakı təmin olunmalıdır.**

**Təlimatlar**:
Xarici keyfiyyət təminatı sisteminin əhəmiyyət kəsb etməsi üçün ali təhsil müəssisələri və ictimaiyyət həmin agentliklərə etimad bəsləməlidir.

Ali təhsil müəssisələri daxil olmaqla ali təhsildə agentliklər və müvafiq maraqlı tərəflər arasındakı münasibətlər və agentliklərin işinin əhatə dairəsi ilə yanaşı keyfiyyət təminatı üzrə fəaliyyətlərin məqsədi və hədəfləri təsvir və dərc edilməlidir.

Qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün agentlik tərəfindən xarici keyfiyyət təminatı üzrə müxtəlif tədbirlər həyata keçirilə bilər. Həmin tədbirlər arasında proqram və ya institusional səviyyədə müxtəlif üsullarla həyata keçirilən qiymətləndirmə, yoxlama, audit, dəyərləndirilmə, akkreditasiya və digər oxşar fəaliyyətlər ola bilər. Agentliklər digər fəaliyyətlər həyata keçirdikdə xarici keyfiyyət təminatı fəaliyyəti və digər fəaliyyət sahəsi arasında dəqiq müəyyən edilmiş sərhəd olmalıdır.

### 3.2. Rəsmi status

**Standart :**
**Agentliklərin fəaliyyətini tənzimləyən hüquqi normativ baza olmalıdır və onlar müvafiq səlahiyyətli orqanlar tərəfindən xarici keyfiyyət təminatı üzrə agentlik qismində tanınmalıdır.**

**Təlimatlar**:

Xarici keyfiyyət təminatı prosesi hüquqi-normativ məqsədlər üçün həyata keçirildikdə, həmin prosesin ali təhsil sistemi, dövlət , maraqlı tərəflər və ictimaiyyət tərəfindən qəbul edilməsi üçün əsas olmalıdır.

### 3.3. Müstəqillik

**Standart :**
**Agentliklər müstəqil olmalı və fəaliyyətində heç bir tərəfdən asılı olmamalıdır. Agentliklər fəaliyyətlərinə görə məsuliyyət daşıyır və hər hansı bir üçüncü tərəf onların fəaliyyətinə müdaxilə etməməlidir.**

**Təlimatlar**:

Müstəqil ali təhsil müəssisələri müstəqil agentliklərlə tərəfdaş kimi fəaliyyət göstərməlidir.

Agentliklərin müstəqil olması üçün aşağıdakı şərtlər təmin olunmalıdır :

- təşkilati hüquqi formasına görə müstəqil olmalı və rəsmi sənədlərlə (yəni, dövlət orqanları tərəfindən verilmiş sənədlər, hüquqi aktlar və ya təşkilatın nizamnaməsi) sübuta yetirilməlidir. Həmin rəsmi sənədlərə əsasən agentliyin ali təhsil müəssisələri, hökumət və digər maraqlı təşkilatlar qismində çıxış edən üçüncü şəxslərdən heç bir asılılığı olmamalıdır;
- fəaliyyətində müstəqilliyin təmin olunması: agentliyin öz fəaliyyətində həyata keçirdiyi prosedurlar və metodlar, habelə kənar ekspertlərin namizədliyinin təklif edilməsi və agentliyin fəaliyyətinə cəlb edilməsi ilə bağlı qərarlar ali təhsil müəssisələri, dövlət orqanları və digər maraqlı tərəflərin müdaxiləsi olmadan qəbul edilir;
- yekun nəticələrin müstəqil olması: keyfiyyət təminatı proseslərində müvafiq maraqlı tərəflərin nümayəndələri, o cümlədən tələbələr iştirak etdikdə həmin proseslərin yekun nəticələrinə görə agentlik məsuliyyət daşıyır.

Agentliyin xarici keyfiyyət təminatı fəaliyyətinə ekspert qismində cəlb olunmuş şəxs və ya şəxslər təlimatlandırılmalıdırlar ki, onlar üçüncü şəxs tərəfindən hər hansı bir fəaliyyətin həyata keçirilməsi üçün işə cəlb olunduqda, həmin ekspertlər müstəqil şəxs qismində fəaliyyət göstərməlidirlər və agentlikdə çalışdıqları zaman həmin üçüncü təşkilatı təmsil edə bilməzlər. Hər hansı bir prosedur və ya qaydaların peşəkar qiymətləndirilməsi üçün ekspertlərin hər hansı bir tərəfdən asılı olmaması vacib şərtdir.

### 3.4. Tematik təhlil

**Standart :**
**Agentliklər müntəzəm olaraq xarici keyfiyyət təminatı üzrə fəaliyyətləri barədə hesabat verməli və əldə etdikləri ümumi nəticələri açıqlamalıdır.**

**Təlimatlar**:

Agentliklər öz peşəkar fəaliyyətləri çərçivəsində onların birbaşa missiyasına aid olmayan, ali təhsil müəssisələri və proqramlar haqda faydalı məlumatlar toplaya bilər və sonradan həmin məlumatları ali təhsil sistemində struktur təhlili üçün təqdim edə bilər. Bu növ məlumatların toplanması və təhlili keyfiyyət təminatı siyasətlərinin və proseslərin institusional, milli və beynəlxalq səviyyədə əks olunmasına və təkmilləşməsinə təsir edə bilər.

Bu məlumatın təfərrüatlı və diqqətlə təhlili yeni nailiyyətləri, tendensiyaları və mütərəqqi təcrübələri və ya meydana çıxan problemləri əks etdirəcəkdir.

### 3.5. Resurslar

**Standart :**

**Fəaliyyətləri həyata keçirmək üçün agentliklər həm insan, həm də maliyyə sahəsində müvafiq və münasib resurslara malik olmalıdır.**

**Təlimatlar**:

Ali təhsil sisteminin ayrı-ayrı fərdlərin və bütövlükdə cəmiyyətin inkişafına əhəmiyyətli təsir etdiyini nəzərə aldıqda, agentliklərin lazımi qaydada maliyyələşməsində cəmiyyət özü maraqlı olmalıdır. Agentliklərin müvafiq maliyyə imkanına malik olması xarici keyfiyyət təminatı üzrə fəaliyyətlərini effektiv və səmərəli şəkildə təşkil etməyə və həyata keçirməyə imkan yaradır. Əlavə olaraq, maddi

resursların olması agentliklərə öz fəaliyyətlərini təkmilləşdirmək, əldə etdikləri təcrübələri cəmiyyətlə bölüşmək və bu barədə ictimaiyyəti məlumatlandırmaq imkanı yaradır.

### 3.6. Daxili keyfiyyət təminatı və peşəkar etika

| |
|---|
| **Standart :**<br>**Agentliklər fəaliyyətlərində keyfiyyət və dürüstlüyün tərifi, təminatı və artırılması üzrə daxili keyfiyyət təminatı proseslərinə malik olmalıdır.** |

**Təlimatlar**:

Agentliklər fəaliyyətində maraqlı olan tərəflərə hesabat verməlidir. Agentliyin işində yüksək peşəkarlıq standartlarının və düzgünlüyün təmin olunması olduqca əhəmiyyətlidir. Agentliklərin ali təhsil müəssisələrinə və cəmiyyətə göstərdikləri xidmətlərin faydalı olmasının təmin edilməsi məqsədi ilə onların fəaliyyətləri daimi nəzərdən keçirilməli və təkmilləşdirilməlidir.

Agentliklər fəaliyyətlərində rəsmi internet səhifələrində əks olunmuş daxili keyfiyyət təminatı siyasətinin rəhbər tuturlar. Bu siyasət aşağıdakı tələblərə cavab verməlidir:

- agentliyin fəaliyyətində iştirak edən bütün şəxslərin ixtisaslı və peşəkar olmasını, etik qaydalara əməl etməsini təmin etməlidir;
- agentlik daxilində davamlı inkişafa səbəb olan daxili və kənar vasitələrlə əks əlaqə mexanizmi nəzərdə tutmalıdır;
- hər hansı dözümsüzlüyün və ayrıseçkiliyin olmamağını təmin etməlidir;
- agentliyin fəaliyyət sahəsini nizamlayan aidiyyəti səlahiyyətli orqanlarla müvafiq əlaqələri əks etdirməlidir;
- agentlik keyfiyyət təminatı üzrə hər hansı bir fəaliyyəti və ya sahəni üçüncü şəxsə həvalə etdiyi halda podratçı təşkilatlar tərəfindən göstərilən xidmətlər ESG-yə uyğun olmalıdır;
- xarici keyfiyyət təminatı üzrə qiymətləndirilmə aparılmış ali təhsil müəssisələrinə agentlik tərəfindən müvafiq status verilməsi və tanınması imkanı verilməlidir.

### 3.7. Agentliklərin dövri olaraq kənardan yoxlanılması

| |
|---|
| **Standart :**<br>**ESG-yə uyğun fəaliyyət göstərdiklərini nümayiş etdirmək məqsədi ilə agentliklər ən azı beş ildən bir kənardan yoxlanılmalıdır.** |

**Təlimatlar**:

Xarici təşkilatlar tərəfindən vaxtaşırı aparılan yoxlamalar agentliklərin siyasətini və fəaliyyətini yenidən nəzərdən keçirməyə kömək edəcəkdir. Bu yoxlamalar müvafiq maraqlı tərəflərə agentliyin ESG-də əks olunan prinsiplərə uyğun fəaliyyət göstərdiyini sübut etmək üçün əsas olacaqdır.

## Əlavə III. Standartların ümumi siyahısı
## 1-ci hissə : Daxili keyfiyyət təminatı üçün standartlar

**1.4. Keyfiyyət təminatı siyasəti**

Ali təhsil müəssisələri ictimaiyyət üçün açıq olan və onların starteji idarəetməsinin bir hissəsini təşkil edən keyfiyyət təminatı siyasətinə malik olmalıdır. Təşkilatın daxilində olan maraqlı tərəflər bu siyasəti müvafiq struktur və proseslər vasitəsi ilə və eyni zamanda təşkilatdan kənarda olan maraqlı tərəfləri də bu prosesə cəlb etməklə həmin siyasəti inkişaf etdirməli və həyata keçirməlidir.

**1.2. Proqramların tərtib və təsdiq olunması**

Ali təhsil müəssisələri proqramlarının tərtib və təsdiq olunmasını nəzərdə tutan proseslərə malik olmalıdır. Proqramlar tərtib olunarkən onların qarşısında qoyulan tapşırıqlar, o cümlədən gözlənilən təlim nəticələr nəzərə alınmalıdır. Proqramda nəzərdə tutulan kvalifikasiya aydın şəkildə müəyyən edilməli və əlaqələndirilməli, ali təhsil üzrə milli kvalifikasiya çərçivəsinə, Avropa ali təhsil məkanının kvalifikasiya çərçivəsinə uyğun olmalıdır.

**1.3. Tələbələrə yönəldilmiş təlim, tədris və qiymətləndirmə**

Müəssisələr proqramların tələbələrin tədris prosesinin yaradılmasında fəal iştirakını təşviq edəcək və tələbələrin qiymətləndirilməsinin bu yanaşmanı əks etdirəcək tərzdə keçirilməsini təmin etməlidir.

**1.4. Tələbələrin ali məktəbə qəbulu, təhsil alması, tanınması və attestasiyası**

Ali təhsil müəssisələri tələbələrin ali məktəbə qəbulu, təhsil alması, tanınması və attestasiya qaydalarını qabaqcadan müəyyən və bəyan etməlidir.

**1.5. Müəllim heyəti**

Ali təhsil müəssisələrində çalışan müəllimlərin səriştələri həmin ali təhsil müəssisələri tərəfindən təmin olunur. Müəllim heyətinin işə qəbulunda və digər kadr məsələlərində şəffaf və ədalətli qaydalar tətbiq edilməlidir.

**1.6. Təhsil resursları və tələbələrə dəstək**

Təhsil və tədris proseslərinin həyata keçirilməsi üçün ali təhsil müəssisələri müvafiq maliyyə imkanlarına malik olmalıdır. Tələbələrin tədris resurslarına çıxışı təmin olunmalıdır və onlara bu sahədə dəstək verilməlidir.

**1.7. Məlumatın idarə olunması**

Ali təhsil müəssisələrinin proqramlarının və digər fəaliyyətlərinin səmərəli şəkildə həyata keçilməsini təmin etmək üçün ehtiyac duyulan məlumatlar əldə olunmalı, təhlil edilməli və istifadə olunmalıdır.

**1.8. İctimaiyyət üçün məlumat**

Ali təhsil müəssisələri fəaliyyətləri, o cümlədən proqramları barədə aydın, dəqiq, obyektiv və son məlumatları nəşr etməlidirlər. Məlumatlar əlçatarlı olmalıdır.

**1.9. Proqramların daimi monitorinqinin aparılması və müntəzəm yoxlanılması**

Ali təhsil müəssisələri tədris proqramlarında nəzərdə tutulmuş məqsədlərə nail olmaq, habelə tələbələrin və cəmiyyətin ehtiyaclarını təmin etmək məqsədi ilə proqramların daimi monitorinqini aparmalı və vaxtaşırı yoxlamalıdırlar. Proqramların yoxlanılmasının nəticəsi kimi həmin proqramlar təkmilləşməlidir. Planlaşdırılan və ya həyata keçirilən hər hansı bir fəaliyyət barədə bütün aidiyyəti tərəflərə məlumat verilməlidir.

**1.10. Dövri xarici keyfiyyət təminatı**

Vaxtaşırı olaraq ali təhsil müəssisələri ESG-yə uyğun olaraq xarici keyfiyyət təminatı vasitəsi ilə yoxlamadan keçməlidir.

**2-ci hissə: xarici keyfiyyət təminatı**

**2.1. Daxili keyfiyyət təminatı prosesinin nəzərdən keçirilməsi**
Xarici keyfiyyət təminatı ESG –nin 1-ci hissəsində təsvir edilmiş daxili keyfiyyət təminatının səmərəliliyini qiymətləndirməlidir.

**2.2. Nəzərdə tutulmuş məqsədlərə uyğun olan metodologiyanın hazırlanması**
Xarici keyfiyyət təminatı sistemi müvafiq qanunvericilik aktlarının tələbləri nəzərə alınmaqla həmin sistem qarşısına qoyulan məqsədlərə cavab verməsi şərti ilə hazırlanmalıdır.

**2.3. Prosesi həyata keçirilməsi**
Xarici keyfiyyət təminatı prosesləri etibarlı və faydalı olmalı, əvvəlcədən müəyyən edilib razılaşdırılmalı və ictimaiyyətə bəyan olunmalıdır. Xarici keyfiyyət təminatı prosesləri zamanı aşağıdakı şərtlərə əməl olunmalıdır:

- özünüqiymətləndirmə və ya buna oxşar bir proseslər həyata keçirilməli;
- xarici qiymətləndirilmə zamanı qiymətləndirilmə aparılan yerə səfər edilməli;
- kənar qiymətləndirilmənin aparılması nəticəsində hesabat tərtib olunmalı;
- bu sahədə işlərin davam etdirilməsi.

**2.4. Müstəqil ekspertlər**
Xarici keyfiyyət təminatı üzrə müstəqil ekspert qrupunda tələbələr də təmsil olunmalıdır.

**2.5. Nəticələrə dair meyarlar**
Xarici keyfiyyət təminatının nəticəsində əldə edilən istənilən nəticə və ya mühakimələr prosesin rəsmi qərarla nəticələnib-nəticələnməməyindən asılı olmayaraq daim tətbiq edilən açıq və nəşr edilmiş meyarlara əsaslanmalıdır.

**2.6. Hesabat**
Expertlərin hesabatları tam dərc edilməli və elmi ictimaiyyət, xarici tərəfdaşlar və digər maraqlı fərdlər üçün aydın və əlçatarlı olmalıdır. Agentlik hesabata əsaslanaraq rəsmi qərar qəbul edərsə, həmin qərar hesabatla birlikdə dərc olunmalıdır.

**2.7. Şikayət və müraciətlər**
Şikayət və müraciətlərin edilməsi prosesi xarici keyfiyyət təminatı prosesinin bir hissəsi olmalı, aydın şəkildə müəyyən edilməli və ali təhsil müəssisələrinə bu barədə məlumat verilməlidir.

**3-cü hissə : keyfiyyət təminatı agentlikləri üçün standartlar və təlimatlar**

**3.1. Keyfiyyət təminatı üzrə həyata keçirilən fəaliyyətlər, siyasət və proseslər**
ESG-nin 2-ci hissəsində əks edilmiş təlimatlara uyğun olaraq agentliklər müntəzəm sürətdə xarici keyfiyyət təminatı üzrə tədbirlər həyata keçirməlidir. Agentliklərin açıq-aydın və dəqiq müəyyən edilmiş məqsədləri və hədəfləri olmalıdır. Bu hədəf və məqsədlər təşkilatın bəyan edilmiş missiyasının bir hissəsini təşkil etməlidir. Bu qaydalar agentliyin gündəlik fəaliyyətində öz əksini tapmalıdır. Agentliklərin idarə olunmasında və fəaliyyətində maraqlı tərəflərin iştirakı təmin olunmalıdır.

**3.2. Rəsmi status**

Agentliklərin fəaliyyətini tənzimləyən hüquqi normativ baza olmalıdır və onlar müvafiq səlahiyyətli orqanlar tərəfindən xarici keyfiyyət təminatı üzrə agentlik qismində tanınmalıdır.

**3.3. Müstəqillik**

Agentliklər müstəqil olmalı və fəaliyyətində heç bir tərəfdən asılı olmamalıdır. Agentliklər fəaliyyətlərinə görə məsuliyyət daşıyır və hər hansı bir üçüncü tərəf onların fəaliyyətinə müdaxilə etməməlidir.

**3.4. Tematik təhlil**

Agentliklər müntəzəm olaraq xarici keyfiyyət təminatı üzrə fəaliyyətləri barədə hesabat verməli və əldə etdikləri ümumi nəticələri açıqlamalıdır.

**3.5. Resurslar**

Fəaliyyətləri həyata keçirmək üçün agentliklər həm insan, həm də maliyyə sahəsində müvafiq və münasib resurslara malik olmalıdır.

**3.6. Daxili keyfiyyət təminatı və peşəkar etika**

Agentliklər fəaliyyətlərində keyfiyyət və dürüstlüyün tərifi, təminatı və artırılması üzrə daxili keyfiyyət təminatı proseslərinə malik olmalıdır.

**3.7. Agentliklərin dövri olaraq kənardan yoxlanılması**

ESG-yə uyğun fəaliyyət göstərdiklərini nümayiş etdirmək məqsədi ilə agentliklər ən azı beş ildən bir kənardan yoxlanılmalıdır.